**<u>Başın yumşaq toxumalarının yaralanması zamanı ilk yardım:</u>**

***Yadda saxlayın: Başın yaralanmaları zamanı yara yerindən havanın keçməsi zərərçəkmişin həyatı üçün təhlükəlidir!***




● Vaxt itirmədən yara yerinə bint topası və ya bir neçə dəfə qatlanmış qalın parça qoyun. Parça qanla tam islanmış olsa belə onu yaranın üzərindən götürmək olmaz (islanmış parça yara yerindan havanın keçməsinin qarşısını alacaq). Həmin parçanın üzərinə başqa bir parça və ya bint qoyun.

● Papaq ya ləçək taxmaqla və ya bintlə sarımaqla yara üzərinə qoyulmuş parçanı (bint topasını) hərəkətsizləşdirin.







● "Təcili yardım" çağırın və ya zərərçəkmişin təcili olaraq tibb müəssisəsinə təxliyyəsinə yardım edin.

***Unutmayın: Qaydalara biganəlik - həyatımıza təhlükədir!***
***Təhlükə zamanı 112-yə zəng edin!***

**AZƏRBAYCAN RESPUBLİKASI**
**FÖVQƏLADƏ HALLAR NAZİRLİYİ**

## Fövqəladə hallar üzrə təlimat

# QANAXMALAR

**Boyunun aşağı hissəsində yuxu arteriyasının qanaxması zamanı ilk yardım:**



● Dərhal yaranı barmağınızla sıxın (yara üzərinə dəsmal və ya hər hansı parça qoyaraq üzərindən barmaqla sıxmaq olar).

● Zərərçəkmişin yaxalığının üzərindən yaranı dəsmal və ya parça ilə sıxın.





● Sıxılmış yerə bint topası və ya bir neçə dəfə qatlanmış qalın parça qoyun.

● Qankəsən jqutu və ya əlaltı vasitəni parçanın üzərinə qoyub zərərçəkmişin boynundan və qarşı tərəfdəki qolunun altından keçirib düyünləyin. "Təcili yardım" çağırın və ya zərərçəkmişi təcili olaraq tibb müəssisəsinə çatdırın.





● Zərərçəkmişin qarşı tərəfdəki qolunu qaldırıb başı üzərinə tutun.

● Parçanın üzərindən jqut və ya əlaltı vasitəni qarşı tərəfdəki qaldırılmış qolun üzərindən keçirib düyünləyin.



**Boyunun yuxarı hissəsində yuxu arteriyasının qanaxması zamanı ilk yardım:**



● Dərhal yaranı barmağınızla sıxın (yara üzərinə dəsmal və ya hər hansı parça qoyaraq üzərindən barmaqla sıxmaq olar).

● Sıxılmış yerə bint topası və ya bir neçə dəfə qatlanmış qalın parça qoyun.



**Bud arteriyasının qanaxması zamanı ilk yardım:**

***Yadda saxlayın: bud arteriyasının qanaxmasının 2 dəqiqədən artıq davam etməsi zərərçəkmişin ölümünə səbəb olur.***



● Qasıq büküşündən bir qədər aşağıda budun içəri tərəfində bud arteriyasını yumruğunuzla sıxın.

● Arteriyanı sıxmaqda davam edərək yaradan bir qədər yuxarı bint topası və ya bir neçə dəfə qatlanmış qalın parça (hər hansı cisim) qoyun.





● Parçanın üzərindən jqut və ya əlaltı vasitəni bud sümüyünə sarıyın (qalstuk, kəmər, bir neçə dəfə qatlanmış uzunsov parça). Topuq üzərində nəbzi yoxlayın va ya qanaxmanın dayandığına əmin olduqdan sonra əlaltı vasitəni düyünləyin.

● Əlaltı vasitənin altına onun qoyulduğu vaxtın yazıldığı (saat, dəqiqə) kağızı yerləşdirin.



**Yuxarı ətrafın (bazu, said, bilək) kəskin qanaxmaları zamanı ilk yardım:**





***Yadda saxlayın! Zərərçəkmişin qısa müddətdə çoxlu miqdarda qan itirməsi onun həyatı üçün təhlükəlidir! Əsas yardım qanaxmanın tez və düzgün qaydada dayandırılmasından ibarətdir.***

● Vaxt itirmədən dərhal yara yerindən yuxarı zərərçəkmişin paltarının üzərindən damarı hər hansı əlaltı vasitə ilə sıxın. Bu zaman yaradan aşağıda nəbz hiss olunmamalıdır.





● Yara üzərinə sarğı qoyun. Əlaltı vasitənin altına onun qoyulduğu vaxt yazılmış kağız yerləşdirin.

● Qolu ürək səviyyəsindən yuxarı tutun.






● "Təcili yardım" çağırın və ya zərərçəkmişin təcili olaraq tibb müəssisəsinə təxliyyəsinə yardım edin.

***Hər 30-40 dəqiqədən bir əlaltı vasitəni 20-30 saniyə müddətində açmaq (ondan aşağıda olan dərinin rəngi normallaşana qədər) və sonra yenidən əvvəlki yerindən bir qədər yuxarı və ya aşağıdan bağlamaq lazımdır. Kağız üzərində yazılmış vaxtı dəyişmək olmaz.***